**GÜLNAR RZAYEVA**
**Azərbaycan Universiteti**
**Ceyhun Hacıbəyli 71**
**grzayeva14@mail.ru**

# AMERIKA ƏDƏBI MÜHITINDƏ MƏNƏVI-ƏXLAQI PROBLEMLƏRIN TƏCƏSSÜM XÜSUSIYYƏTLƏRI

**Xülasə**

Təqdim olunmuş məqalədə II dünya müharibəsindən sonrakı dövrdə həyatın yeknəsəqliyi, Amerikanın patriarxal əyalət gerçəkliyi təsvir olunur. Əsasən bu əhval-ruhiyyədən yaxa qurtarmaq istəyi, mənəvi böhran problemlərinin bədii ədəbiyyatda təcəssüm xüsusiyyətləri təhlil olunur. Məqalədə Heminqueyin, Folknerin, Fitsceraldın, Steynbekin və digər sənətkarların əsərlərindən nümunələr gətirilir . XX əsrin 50-ci illərinin həyat tərzini, insanların üz-üzə gəldiyi problemlərin əks olunma problemləri şərh edilir. Belə nəticəyə gəlinir ki, o dövrdə Amerikada hələ "kütləvi cəmiyyət", bitniklərin və hippilərin timsalında baş qaldıran kontrkultura ilə çıxış edən gənclər hərəkatı və bu hərəkatla yanaşı, onunla paralel şəkildə cərəyan edən "seksual inqilab"dan əsər - əlamət yox idi. Lakin onların rüşeymləri artıq mövcud idi. Məlum olmuşdur ki, cəmiyyətin üz-üzə gəldiyi problemlərin adekvat təcəssümü fərdi talelərin təcəssümündən keçir. Məhz fərd bütün sosial, ideoloji, mənəvi-əxlaqi problemlərin düyünləndiyi yerdir. Şəxsiyyət ictimai fəlakəti öz fərdi fəlakəti kimi yaşayır. Bu baxımdan müəllif və onun qəhrəmanı adekvat şəkildə "sadə amerikalıya", "yoldan keçənə" xas olan bütün kompleksləri ehtiva edir. Beləliklə məlum olur ki, XX əsrin ortalarında amerikan cəmiyyətində mobilliyə münasibət köklü şəkildə dəyişmişdir. İndi belə hesab olunur ki, yalnız oturuşmuş cəmiyyətdə uğur qazanmaq olar. Cəmiyyətdə vaxtı ilə onun onurğa sütununu təşkil edən insanlara münasibət dəyişdi. Belə hesab olunur ki, aramsız hərəkət insana ətrafdakı əşya və hadisələri adekvat şəkildə dərk etməyə - onların daxilinə nüfuz edib mahiyyətlərini üzə çıxarmağa, onları bir-birinə calamağa, onlar haqqında ətraflı və düzgün təsəvvür əldə etməyə imkan vermir: onun protaqonistləri hər şey haqqında səthi fikirlər söyləməklə kifayətlənirlər.

**Açar sözlər: cəmiyyət, əxlaq , müharibə, roman, yazıçı**

Amerika cəmiyyətinin böhranının artıq iki müharibəsi arasındakı dövrdə böhran müxtəlif yönümlərdən Heminqueyin, Folknerin, Fitsceraldın, Steynbekin və digər sənətkarların əsərlərində öz bədii təcəssümünü tapırdı. İkinci dünya müharibəsi və ondan sonrakı dövr bu böhranın nəinki zəifləməsinə, yaxud yoxa çıxmasına, əksinə, onun daha da dərinləşməsinə və yeni çalarlar kəsb etməsinə səbəb oldu. Müharibə dövründə və sonrakı onilliklərdə amerikan gəncliyinin əhval-ruhiyyəsi özünün adekvat ifadəsini yaradıcılıq yoluna yeni qədəm basan bəzi sənətkarları, o cümlədən Cerom Selincerin yaradıcılığında, ilk növbədə onun məhşur "Çovdarlıqda uçurumun üzərində" romanında tapmışdır.

C. Selincer bu əsər üzərində keçən əsrin 40-cı illərinin ortalarında işləməyə başlamış və onu 1951-ci ildə nəşr etdirmişdir. Bütövlükdə roman 17 yaşlı Holden Kolfildin həm yaşının, həm də ətraf aləminin ona təsirindən aldığı təəssüratlarının -daxili aləminin bədii ifadəsidir: yeniyetmə gənc ətraf aləmlə arasında dərin uçurum yarandığını hiss edir və bunu bir şəxsiyyət kimi emosional və intellektual böhran kimi yaşayır.

Holden Kolfild zəngin ailədə dünyaya gəlmişdir və təbii ki, yüksək nüfuza malik olan bahalı, özəl məktəbdə təhsil alır. Lakin ailədə rəhbər tutulan mənəvi-əxlaqi prinsiplər və özəl məktəbdə hökm sürən əhval-ruhiyyə yeniyetməni qane etmədiyindən onda kor-təbii şəkildə formalaşan hələ son dərəcə sadəlövh olan, lakin sağlam bəşəri təməl üzərində qurulmuş prinsiplərə uyğun gəlmədiyinə görə o, məktəbdən qaçır. Əsərin qəhrəmanı son dərəcə əsəbidir, dünyada gedən

proseslərin, insanlarla münasibətlərini son dərəcə böyük gərginlikdə yaşayır. Holden ətrafında yalnız mənfi cəhətləri, adamların ikiüzlülüyünü, xəyanətə meylli olmalarını, hər kəsə yorğanı öz üzərinə çəkməyə sövq edən eqoizmi sezir. Bu isə onda bütün insanlara, bütün cəmiyyətə tüpürmək hissi aşılayır. Amma Holden Kolfildin cəmiyyətə, insanlara, təhsil aldığı məktəbə münasibətində varlı ailədə böyümüş, bütün istədiklərini həyata keçirən uşağın şıltaqlıqları və ərköyünlüyü də özünü büruzə verir. Məhz yaşın spesifikası və ailə tərbiyyəsi Selincerin qəhrəmanının dünyaya münasibətini müəyyən edən amillərdir. Məhz bu səbəblərdən Holden özünün “axmaq məktəbinə” nifrət edir, “səfeh məktəblilər” və “gözə kül üfürən müəllimlər” onda ikrah hissi oyadırlar. Holden ailəsinə də, məktəbə də, yoldaşlarına da və onların timsalında bütün dünyaya da nifrət edir. Məhz bu nifrət onun cəmiyyətdə qəbul olunmuş, qayda-qanunları, nizam-intizamı pozmağa, tədrisi yarımçıq qoyub Nyu Yorka qaçmağa sövq edir.

Lakin Holden obrazının özəlliklərini yalnız onun yaş durumu və ailə vəziyyətinə müncər etmək doğru olmaz. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, romanda Holden Kolfild obrazı həmçinin simvolik ölçüyə malikdir. Heç də təsadüfi deyildir ki, onun həyat yolu haqqında etirafından ibarət hekayəti sanatoriyada xəstəlikdən müalicə olunduğu dövrdə başlanmışdır. Xəstəliyin qəhrəmanının cəmiyyətlə, dünya ilə ziddiyətli münasibətini bədii təcəssümü qismində təqdimi artıq XIX əsrdə, xüsusilə naturalizmin nümayəndələrinin əsərlərində təsadüf olunan motivlərindən biridir. XIX əsrin sonu - XX əsrlərdə özgələşmənin dərinləşməsi ilə əlaqədar olaraq qərb ədəbiyyatlarında mənəvi-əxlaqi problemlərin ədəbi-bədii fikirdə psixi pozuntusu, cismani mərəz kimi təcəssümü aparıcı mövzulardan birinə çevrilmişdir. Çexovun “Altıncı palata”, T.Mannın “Möcüzəli dağ”, Sartrın “Azadlıq yollarında”, Kamünin “Taun” əsərləri buna misal ola bilər.

Təbii ki, Amerika ədəbi-bədii fikri də bu tendensiyaya biganə münasibət bəsləməmiş, C.Londonun məhşur “Martin İden”, Heminqueyin yuxarıda təhlil etdiyimiz “Klimancaro qarları” əsərləri mənəvi-əxlaqi böhranın cismani mərəz qismində özünü büruzə verməsinin bədii təcəssümü kimi diqqəti cəlb edirlər. C. Selincer də özünəməxsus görmə bucağından ictimai mərəzi cismani xəstəlik kimi oxucuya təqdim edir. Bu halda xəstəliyə görə qəhrəmanın cəmiyyətdən təcrid olunması kimi təcəssüm olunur və metaforik səciyyə kəsb edir.

Ədəbi qəhrəman qismində Holden Kolfild dünya bədii fikrində son dərəcə qədim-folklorda geniş yayılmış səfeh obrazı ənənələrinə söykənir. Bu baxımdan qəhrəman nağılların “səfeh”, “ keçəl”, “cırtdan” personajları kimi bir növ nağılvari ört-basdır etmə, pisi yaxşı kimi qələmə vermə meylinə aldanmayan, dünyaya açıq və ayıq gözlə baxan, bir növ nağılın içində nağılın uydurma olmasını nəzərə çatdıran Holden Kolfild ətrafdakılardan gerçəkliyi daha yaxşı başa düşür və dəyərləndirir. Bunun sayəsində Selincerin qəhrəmanı bir çox sosial ayin və mərasimlərin saxtalığını hiss edir. Romanda Holden bütün bunları “saxtakarlıq və gözəsoxmaq” cəhdi kimi dəyərləndirir. Bu baxımdan Holden nağılların personajları ilə yanaşı Orta əsrlər Avropa mədəniyyətində geniş yayılmış, ciddi rəsmi mədəniyyətin çatışmazlıqlarını ifşa hədəfinə çevirən təlxək obrazlarına bənzəyir. Holden Kolfildin tərsinə taxtığı qırmızı rəngli ovçu papağı orta əsrlərdə təlxəklərin geydikləri təlxək papağının metoforik şəkildə yenidən, XX əsr şəraitində təkrarı kimi dəyərləndirilə bilər. Sadəcə olaraq orta əsrlərin təlxəyi cəmiyyətin aşağı təbəqələrini təmsil edirdi və üz-üzə gəldiyi çatışmazlıqların gülüş, ələ salmaq obyektinə çevirməklə kifayətlənirdi, halbuki amerikalı yazıçının qəhrəmanı yuxarı təbəqənin, say-seçmələrin nümayəndəsidir və onun ifşa hədəfi özünə yaxın adamlardır və müəyyən mənada özüdür. Cəmiyyətdə mövcud olan dəyərlərə, əxlaq kodeksinə total inkar mövqeyindən yanaşması Holden Kolfildi ilk bitnik yaxud hippi kimi dəyərləndirməyə əsas verir. Bu baxımdan tədqiqatçılar haqlı olaraq, Selincerin qəhrəmanın “Xuliqanlıqla” araqarışdıranın birisi deyib, tənha üsyankar kimi dəyərləndirməkdə haqlıdırlar (1,32). Həqiqətən də Holden Kolfild obrazı Amerika ədəbiyyatının formalaşması dövründə F. Kuperin romantik Nataniel Bampo obrazı ilə təməli qoyulan, sonralar Melvill (“Mobi Dik”), Mark Tven (“Şəhzadə və dilənçi”), Heminquey ( “Əlvida, silah!” ) tərəfindən cəmiyyətin həyatından kənarlaşdırılan, buna görə də cəmiyyətə qarşı inkar mövqeyində dayanmağa məcbur olan qəhrəmanların XX əsrdə, İkinci dünya müharibəsindən sonrakı dövrdə ictimai, siyasi, ideoloji, mənəvi-əxlaqi durumun ortaya qoyduğu kontrkultura mövqeyindən çıxış edən Ginsberqin, Keruakın, Kizinin qəhrəmanları arasında əlaqələndirici halqadır.

Dövrün mənəvi-əxlaqi dəyərlərini qəbul etməyən Kolfild paradoksal şəkildə cəmiyyətə qarşı etirazında və üsyankarlığında məhz həmin dəyərlərlə silahlanaraq çıxış edir. O, cəmiyyətin və insanların eqoizminə qarşı öz eqoizmi ilə çıxış edir. Bu baxımdan onun etirazı, 50-ci illərdə bitniklərin və hippilərin timsalında istehlak cəmiyyətinə qarşı keçən əsrin 50-ci illərində yayılmış gənclər hərəkatının ideologiyasına tamamilə uyğun gəlir. Holden apriori cəmiyyətin onun nümayəndəsi olduğu sosial təbəqə üçün yaratdığı imkanlardan imtina edir. O nəyin bahasına olursa-olsun cəmiyyətin iyerarxiya sistemində onun üçün nəzərdə tutulmuş "pillə" də qərarlaşmaqdan imtina edir. O, tədrisini davam etdirməməyi onunla əsaslandırır ki, "hansı isə bir konturda işləyib çoxlu pul qazanma, işə maşınla Medison – avenyu boyu şütüyən avtobusla getmək, gecələr qəzet oxumaq, bric oynamaq yaxud kinoya getmək istəmir" (2,49).

Kolfild belə hesab edir ki, cəmiyyət tənhaların birliyi konsepsiyası əsasında qurulmuşdur, ilk baxışdan kütlənin hüdudlarından insanlar bir-birinə çox yaxındırlar, lakin mahiyyət etibarı ilə onların arasında uçurum mövcuddur. Özü də paradkosal şəkildə kütlənin içində insanlar bir-birinə nə qədər yaxınlaşırsa, onların arasında uçurum bir o qədər genişlənir, dərin və keçilməz olur: bu, illuziya yaxınlaşmadan, əslində insanların bir-birindən uzaqlaşmasından, təcrid olunmasından özgələşməsindən xəbər verir.

Kolfild bu "tənhaların birliyi"nə qarşı özünün son dərəcə utopik səciyyə daşıyan proyektini qoyur: o, fərdin tənhalığını cəmiyyətin tənhalığına qarşı qoyaraq, Amerika Birləşmiş Ştatlarının qərb bölgəsinə qaçmaq, çayın qırağında daxma tikib orada yaşamaq istəyir. O, belə hesab edir ki, yalnız cəmiyyətdən cismən tamamilə təcrid olunmaqla ümumbəşəri dəyərlərə yol tapmaq olar.

Selincerin qəhrəmanının tənhalıqdan, cəmiyyətin insanlara zorla qəbul etdirdiyi dəyərlərdən xilas olmaq üçün qərbə üz tutması motivi Amerika ədəbiyyatı üçün səciyyəvidir. Ümumiyyətlə, Amerika mədəniyyətində qərb bölgəsi ölkənin tarixi boyu heç bir sosial məhdudluqla yaxud şərtiliklə sıxılmayan azad həyat, insanın təbiətlə ittifaqı simvolu olmuşdur. Selincer öz qəhrəmanının timsalında Amerika xalqının artıq təhtəlşüurunda özünə yer almış bu istəyin xam xəyal olduğunu, heç bir məkanın insana apriori azadlıq və sərbəstlik vermədiyini, heç bir xarici faktorun insanın daxilən azad olmasını təmin edə bilməməsi qənaətindədir. Selincer qərb amilinin azadlıq qismində qabardılmasının əsassız olduğunu sübuta yetirmək üçün qəhrəmanını istehza məqamında məhz qərbdə, Kaliforniyada klinikada yerləşdirir.

Holdenin özü əsərin adının simvolik mənasını izah edir: o, bacısı Fibi ilə söhbətində Şotland şairi Robert Bernsin bir misrasını yadına salır: "Əgər kimi isə axşam çağı çovdarlıqda tutmusansa". Selincerin qəhrəmanı istehlak cəmiyyətində özünəlayiq sosial rol tapa bilmir, buna görə də özünü nəhəng çovdarlıq zəmisinin ortasında təsəvvür edir. Bu zəminin kənarında xırda uşaqlar oynayırlar. O, özünü beyzbol ketçeri - atılan topları tutanın simasında təsəvvür edir. Lakin ona tərəf atılan toplar yox, xırda uşaqlardır. Onun vəzifəsi isə onları tutub uçuruma düşməsinin qabağını almaqdır. Deməli, romanın adı simvolik şəkildə saxta mənəvi - əxlaqi dəyərlərlə yaşayan gələcək nəsillərin xilasi problemi durur: bu ancaq bütün mövcud dəyərlərdən imtina əsasında mümkündür. Dünyaya qarşı üsyanda Holden Kolfild tək deyil, onun bacısı Fibi qardaşının bir növ təkrarıdır, güzgüdə əksidir. O da əzəli-əbədi Amerika arzusunu zəhlətökən mühitdən baş götürüb qaçmaq istəyir və bunu uşaq səmimiliyi ilə həyata keçirmək arzusundadır. Lakin qardaşlarından fərqli olaraq Fibi sövqü-təbii şəkildə başa düşür ki, dünyadan təcrid olunmuş, heç bir əxlaq məhvərinə malik olmayan, üsyankar dünyanı dəyişmək iqtidarında deyil.

Kitabın nəşrindən təxminən on il keçəndən sonra Selincerin "Çovdarlıqda uçurumun qarşısında" romanı gənc amerikalıların mövcud dəyərlərə qarşı mədəni etirazının manifestinə çevrildi. Bitniklərin və hippilərin yaratdıqları kontrkulturaya söykənən incəsənətin müxtəlif növləri məhz Selincerin romanının ideya məzmunundan bəhrələnmişlər. Ginsberqin poeziyasında, Keruakın və Kizinin romanlarında bu təsir açıq şəkildə hiss olunur.

Keçən əsrin 60-cı illərinin əvvəlində mövcud mənəvi dəyərlərə Selincerdən fərqli münasibət Con Apdaykın yaradıcılığında, xüsusilə onun dovşanla bağlı tetralogiyasında nümayiş olunmuşdur (3, 34).

Tetralogiyanın birinci hissəsini təşkil edən "Dovşan, qaç" romanı 1960-cı ildə işıq üzü görmüşdür. Bu əsər dovşan ayamalı Harri Enqstromun ömür yoluna həsr olunmuşdur. Əsər nəşr

olunan kimi oxucuların böyük rəğbətini qazanmışdır.Bu hər şeydən əvvəl gənc sənətkarın Amerika gerçəkliyinin get-gedə, dərin böhrana uğramasının səbəblərinin təmsil etdiyi nəslin nəzər nöqtəsindən təcəssüm edə bilməsi ilə bağlı idi. Onu da qeyd etmək lazımdır ki, müəllif keçən əsrin 60-cı illərində Amerika cəmiyyətində hökm sürən böhran durumunun təsviri ilə kifayətlənməmiş, onun get-gedə 70-ci və 80-ci illərdə dərinləşməsi və faktiki olaraq cəmiyyəti mənəvi fəlakət uçurumu qarşısında qoyması, müəyyən mənada hətta bu uçuruma yuvarlanması prosesi təsvir olunmuşdur; əgər Selincerin qəhrəmanı Holden Kolfild hələ beyzbol ketçeri statusunda uşaqların, yəni yetişməkdə olan yeni nəslin nümayəndələrini "Çovdarlığın kənarında" olan uçuruma yuvarlanmaqlarının qarşısını almaq ümidindədirsə, Apdaykın personajı Harri Enqstrom artıq bu missiyanı həyata keçirməkdən ümidini üzmüşdür. Bu əlbəttə ki, ilk növbədə cəmiyyətdə böhran tendensiyalarının dərinləşməsi ilə bağlıdır. Lakin onu da qeyd etmək lazımdır ki, Apdayk tetralogiyada bir romandan digərinə adlayan dovşan obrazı vasitəsilə bu böhranın get-gedə dərinləşməsinin, geriyədönməz xarakter kəsb etməsini ardıcıl şəkildə təcəssüm etməyə nail olmuşdur.

Qeyd etmək lazımdır ki, ədəbi ictimaiyyət yüksək bədii vasitələrlə sosial problematikanı təcəssüm etmiş sənətkarın əməyini yüksək qiymətləndirmişdir: sənətkar ədəbi tənqidçilərin milli cəmiyyətin, ABŞ-da ən qədim sayılan Pulitser və digər mükafatlara layiq görülmüşdür. Mükafat alınması ilə bağlı söylədiyi nitqlərdən birində Apdayk göstərirdi ki, "Dovşan haqqında tetralogiyasında onun əsas vəzifəsi qəhrəmanın adı normal mövcudluğunu göstərməklə bağlıdır. Bu, adi və bütün Amerika üçün "orta insanı təcəssüm edən qəhrəmandır" (4, 82).

Məlumdur ki, hər bir obrazda, xüsusilə müsbət qəhrəmanda sənətkar bir qayda olaraq özünün bəzi xassələrini inikas etməyə cəhd göstərir. Onu da qeyd etmək lazımdır ki, görkəmli yazıçılar bir qayda olaraq özlərini yalnız müsbət rakursda təqdim etməklə kifayətlənmirlər, mənfi cəhətlərini, xüsusilə hər bir insana xas olan fobiyalarını da əks etdirməklə onlardan yaxa qurtarmağa, xilas olmağa cəhd edirlər. Lakin bütün bunlarla yanaşı mətbuat dəfələrlə Amerika ədəbiyyatı üçün səciyyəvi olan qəhrəmanla yazıçının arasındakı məsafənin azaldılması fonunda belə Apdayka onun qəhrəmanı Harri Enqstrom arasında məsafənin faktiki olaraq yoxa çıxması faktını qeyd etmişlər (5, 39). Onu da xüsusilə qeyd edirlər ki, bu təkcə müəlliflə qəhrəmanın eyni məkanda dünyaya gəlib fəaliyyət göstərməsi, yaş baxımından uyğunluqları ilə deyil, həmçinin və xüsusilə onların daxili aləminin psixoloji durumunun, hiss və düşüncələrinin faktiki olaraq üst-üstə düşməsi ilə bağlıdır. Bu sübuta yetirir ki, Apdaykın Dovşanla bağlı romanlar silsiləsi heç də müəllifin Amerika ədəbi-bədii fikrində geniş yayılmış yarı avtobioqrafik roman tipi yaratmaq fikri olmamışdır. Apdayk simvol qəhrəmanın daxili aləmini təcəssüm etməyə cəhd göstərməklə faktiki olaraq dövrünün adamına xas olan bütün çatışmazlıqları üzə çıxarmağa və bədii vasitələrlə ifadə etmək məqsədindən çıxış etmişdir.

Bununla bağlı iki məqamı qeyd etmək zəruridir. Birincisi, müəllif öz qəhrəmanın həyat yolunu özünün fərdi həyat yolu ilə maksimum yaxınlaşdırmaqla paradoksal nəticə əldə etməyə nail olmuşdur. Məlum olmuşdur ki, cəmiyyətin üz-üzə gəldiyi problemlərin adekvat təcəssümü fərdi talelərin təcəssümündən keçir. Məhz fərd bütün sosial, ideoloji, mənəvi-əxlaqi problemlərin düyünləndiyi yerdir: şəxsiyyət ictimai fəlakəti öz fərdi fəlakəti kimi yaşayır, buna görə də müəllif və onun qəhrəmanı adekvat şəkildə "sadə amerikalıya", "yoldan keçənə" xas olan bütün kompleksləri ehtiva edir.

"Dovşan, qaç" romanının qəhrəmanı Harrinin iyirmi altı yaşı var. Psixoloji cəhətdən bu yaş şəxsiyyətin qocalması üçün böyük əhəmiyyət kəsb edir. İnsanda bu elə bir yaş dövrüdür ki, onun dünya haqqında, insanlar haqqında təsəvvürləri hələ sırf idealist səciyyə daşıyır. İyirmi altı yaşında insan hələ özü üçün rasionalist fəaliyyət sistemi qurub, ona uyğun hərəkət etmək iqtidarında deyil. Harri evlidir, ikinci uşağının dünyaya gəlməsini gözləyir, kiçik bir mağazada reklam agenti işləyir, evdar qadınlara müxtəlif məişət əşyaları nümayiş etdirir. O, işindən də, aldığı əmək haqqından da narazıdır. Ailə həyatında Harri bir sıra problemlərlə üzləşir. Nəticədə Harri Enqstrom bir yerdə qərar tuta bilməyən, ən kiçik təhlükə meydana gələn kimi qaçıb aradan çıxmağa cəhd göstərir və bununla da özünün "Dovşan" ayamasını doğruldur. Dovşan həyat yoldaşından, onun sərxoşluğundan, ara verməyən isterikasından qaçır, evdəki qarmaqarışıqlıqdan, pərakəndəlikdən

uzaqlaşır. Ona elə gəlir ki, özü ilə zəhlətökən mühit arasında məkan məsafəsi yarada bilər və bununla da bütün problemlərini həll etmiş olar. Buna görə də “Dovşan” maşına minib naməlum istiqamətə yollanır; o heç bir şey planlaşdırmır, heç bir məqsəddən çıxış etmir. Onu yalnız bir şey maraqlandırır – qaçmaq, özü də mümkün qədər uzağa qaçmaq. Lakin qaçmazdan əvvəl, o, bir növ cismən qaçışa hazırlaşmaq üçün məşq edir. Əvvəllər basketbolçu olmuş dovşan uşaqlarla oynamağa başlayır. Dovşanın uşaqlara qarşıb dərd-sərini oyunda dağıtmaq istəyi bütövlükdə roman üçün yeni bir mövzunun idman oyunu mövzusunun meydana gəlməsinə səbəb olur. İdman oyunları Apdaykın şərhində gerçəklikdən fərqli cəhətlərə malikdir: idman oyunu nəticələrini öncədən söyləmək çətindir, idman oyunları müəyyən qaydalar əsasında təşkil olunmuşlar və onları pozmaq olmaz. Bütün bu cəhətlər Apdaykın qəhrəmanın fikrincə insana gərçəkliyin zəhlətökən gündəlik qayğılarından ayrılmaq imkanı verir.

Mənəvi–mədəni böhran problemi Apdaykın əsərində özünün yeni görmə bucağından şərhini tapır. Artıq yuxarıda göstərdiymiz kimi Selincerin qəhrəmanı Kolfild ketçer (top tutan) qismində çıxış etməklə bir növ idman hərəkətləri vasitəsi ilə gələcək nəsilləri məhv olmaqdan xilas etmişdir. Apdaykın qəhrəmanı da xilas yolunu cəmiyyətdən, daha doğrusu, onun en xırda, eyni zamanda ən məşəqqətli və əzabverici, insanı ömürlük məhkum edən nüvəsindən qaçmaq ərəfəsində idmanla (basketbolla) məşq edir.

Lakin mənəvi-mədəni böhranla idman arasında münasibətlər sisteminin şəhrində və açıqlanmasında bəzi fərqlər də mövcuddur. Hər şeydən əvvəl Selincerin qəhrəmanı yuxuda idmançı simasında özünü təsəvvür edir. Apdaykın qəhrəmanı isə ayıq şəkildə basketbolla məşğul olur. Hər iki qəhrəmanın idmanla məşğul olması uşaqlarla bağlıdır. Lakin əgər Selincerin əsərində uşaqlar virtualdırlarsa və passiv rol oynayırlarsa, Apdaykın romanında realdırlar və basketbol oyununda fəal iştirak edirlər. Selincerin əsərində idman (beyzbol) Robert Bernsin misrası ilə bütün ingilisdilli mədəniyyətin və incəsənətin tarixi ənənələri və eyni zamanda çovdarlıq zəmisi obrazı ilə təbiətlə əlaqələndirilir, Apdaykın əsərindsə isə idman (basketbol) birdəfəlik və lokal aktdır və universal səciyyə daşımır və bu mənada Selincerdən fərqli olaraq Apdayk idman epizodunu simvola çevirmək fikrində deyil. Onu da qeyd etmək lazımdır ki, hər iki əsərdə idman məqsədyönlüdür. Lakin eyni zamanda əgər Selincerin romanında məqsəd simvolik və metaforik səciyyə daşısa da qarşıya qoyulan məqsədin – gələcək nəsillərin timsalında bəşəriyyətin mənəvi-mədəni böhrandan qurtarmaqdırsa, Apdaykın əsərində məqsəd birbaşa yox, dolayısıyla ifadə olunmuşdur və cəmiyyətin deyil, fərdin Harri Enqstromun xilasına yönəlmişdir.

Kontrkultura ədəbiyyatında idman mövzusu birbaşa təsvir olunmur və yalnız bəzi hallarda epizodik səciyyə daşıyır. Lakin bununla belə Keruakın, Kizinin və digər bitnik–hippi ədəbiyyat nümunələrinin müəllifləri kontrkultura konsepsiyasından çıxış edən qəhrəmanlarının daimi yerdəyişmə, bir yerdə qərarlaşa bilməmək kimi keyfiyyətləri təsvir etməklə onların hərəkətə olan ehtiyaclarını ifadə etmişlər. Lakin bu tamamilə məqsədsiz, boş-boşuna hərəkətdir.

Evindən dovşansayağı qorxu-hürkü içində baş götürüb qaçan Harri Enqstrom öz iş yerini dəyişir. O, yaşlı və zəngin bir qadının malikanəsində bağban vəzifəsində işə düzəlir. Yeni fəaliyyət növü onun xoşuna gəlir, çünki bu onun daxili aləminin fəaliyyətinin dərin qatlarında gizlənmiş və zaman-zaman baş qaldıran bir meylinə - təbiətə qovuşmaqla həyatına, mövcudluğuna məna vermək istəyinə uyğun gəlirdi. Məhz təbiətlə bu müvəqqəti təmasın nəticəsində Harri Enqstroma növbəti iş yeri cəhənnəmə çevrilir. Qızının dünyaya gəlməsindən sonra arvadının yanına qayıtmağa məcbur olan dünənki dovşan avtomobil satqısı ilə məşğul olan kompaniyanın prezidenti qaynatasının yanında işləməyə məcbur olur. O, qaynatasının biznes maraqlarını müdafiə etmək üçün dəridən - qabıqdan çıxmaq məcburiyyəti ilə üzləşir. Ev-iş, iş-ev marşurutu onun üçün yeganə hərəkət istiqamətinə çevrilir. Bütün varlığı ilə azadlığa və sərbəstliyə can atan bir insan üçün bu, əlbəttə ki, dəhşətli bir zülmdür. Qaynatasının biznes maraqlarını qorumaq naminə yalan danışmağa məcbur olan Harri Enqstrom özünə, ətrafdakılara, bütün dünyaya nifrət və ikrah hissi ilə yaşamağa məcburdur.

Romanda təkcə əvvəlki dövrlərin ədəbi ənənələri ilə deyil, obrazlar sisteminin özündə də müəyyən paralellər mövcuddurlar. Hər şeydən əvvəl həyat idealları, həyatın köklü dəyərlərinə münasibətdə iki ata obrazı “Dovşanın atası” və onun qaynatası müxtəlif qütblərdə dayanırlar:

dovşanın atası yüksək mənəvi dəyərlərdən çıxış edir, oğlunu da bu ruhda böyüdür və onda insanlarda düzgün münasibətlər formalaşdırmağa çalışır, qaynata isə biznesmendir, pul qazanmaq üçün insanları aldatmağa hazırdır və həm qızı Cenis vasitəsilə, həm də birbaşa bu keyfiyyəti Harri Enqstroma aşılamağa cəhd edir. Harri Enqstrom evlənəndən sonra faktiki olaraq bu iki həyat konsepsiyası arasında çabalayır, sona qədər qətiyyət nümayiş etdirib heç bir tərəfə birdəfəlik keçə bilmir. Onun iki həyat mövqeyi arasında tərəddüdləri iki bir-birinə əks dünyaduyuma malik, iki müxtəlif dünyagörüş mövqeyindən çıxış edən, iki qadın arasında qalması ilə bağlıdır: Harri həyat yoldaşı Cenisin rəhbər tutduğu dəyərlərini qəbul edə bilməsə də, ailə qarşısında, dünyaya gətirdiyi uşaqlar qarşısında cavabdehlik hissi ona birdəfəlik Cenisi tərk etməyə imkan vermir. Harri ilə Cenis arasında münasibətlər sırf disharmoniya və iki tərəfin qətiyyən bir-birini başa düşməməsinə əsaslanır. Harrinin məşuqəsi Rut Cenisin tam əksini təşkil edir. Rut təbiidir, sözün əsl mənasında qadındır. Ana başlanğıcı onun xarakterinin təməlini təşkil edir. Məhz bu cəhətlər Harri Enqstromun “dovşan”a çevrilməsinə, Cenisi tərk edib Rutla yaşamağa sövq edir. Lakin yuxarıda göstərildiyi kimi Aptaykın qəhrəmanının xarakterinin mayasını məsuliyyət hissi təşkil edir: qızının dünayaya gəlməsindən xəbər tutan kimi o, Rutu tərk edib arvadının yanına qayıdır. O, həyat yoldaşı tərəfindən anlaşılmaq və əvvəllər sanki aralarında mövcud olan ( o hər halda belə düşünür!) məhəbbəti geriyə qaytarmaq ümidi ilə evə qayıdır. Lakin Cenis köhnə adətlərindən əl çəkmir; alkoqolizm artıq bu qadını bütün mənəvi-əxlaqi özünənəzarət vasitələrindən məhrum etmişdir. Günlərin bir günü Harri Enqstrom ailəsində hökm sürən ab-havaya dözmür yenidən dovşana çevrilib evdən qaçır.

Bir neçə gün keçəndən sonra Harri öyrənir ki, o çıxıb gedəndən sonra sərxoş arvadı yenicə dünyaya gəlmiş qızını vannada çimizdirərkən suda boğub öldürmüşdür. Dovşan fikirləşir ki, əgər o baş götürüb evdən qaçmasaydı, bəlkə də bu növbəti faciə baş verməzdi. O belə bir qənaətə gəlir ki, dünyaya gətirdikləri məsum körpənin ölümündə o da təqsirkardır, bu faciənin törədilməsində onun da payı var.

Uşağın torpağa tapşırılması prosesində Harri yenidən həyat yoldaşı ilə münasibətlərini bərpa etmək, onun ürəyinə yol tapmaq istəyir, lakin yenidən anlaşılmazlıq və yalandan hörülmüş divarla üz-üzə gəlir.

Harri Cenisi tərk edib Rutun yanına qaçır. Burada o, məşuqəsinin hamilə olmasından xəbər tutur və ondan uşağı saxlamağı xahiş edir. Lakin onun bir yerdə qərar tuta bilməməsi artıq qadında ona qarşı şübhə hissinin formalaşmasına səbəb olmuşdur: onların arasında gözəgörünməz, bir çox cəhətdən izah olunmaz ekzistensial divar yaranmışdır. Harri Enqstrom bu divarı aşmaq iqtidarında olmadığını dərk edib, əbədi dovşana çevrilir, cəmiyyətdə mövcud olan mənəvi-əxlaqi dəyələrdən birdəfəlik və həmişəlik imtina edib qaçır.

Romanda üçüncü qarşıdurma Harri Enqstromu gənc yaşlarında basketbol üzrə məşqçisi olmuş şəxslə kilsə pastoru arasında öz əksini tapır. Harri yeniyetmə yaşında basketbolla məşğul olanda məşqçi ondan ötrü böyük nüfuz sahibi olmuşdur. İndi də ailəsi ilə, məşuqəsi ilə bağlı problemlər yarananda o, ilk növbədə adəti üzrə məşqçiyə müraciət edir və ondan məsləhət almaq istəyir. Lakin məşqçi üçün Harri əvvəlki potensial imkanlarına görə güclü basketbolçuya çeviriləcəyi gözlənilən yeniyetmə yox, həddibuluğa çatmış kişidir. İndi ona məsləhət vermək yox, yeyib- içmək olar. Belə bir münasibət Harri Enqstromda məşqçisinə qarşı inamsızlıq və məyusluq hissi yaradır. Pastor Ekkols basketbol məşqçisinin əksini təşkil edir və dovşanın həyatında fərqli rol oynayır. Məhz pastor vasitəsi ilə Harri Enqstrom ona vacib olan bir problemi - insanın Allaha, Allahın insana münasibəti problemini həll etmək, insanın həyat yönümünü müəyyən edən prinsipləri aydınlaşdırmaq, bunula bağlı onda doğan saysız-hesabsız suallara cavab axtarır. Harri Enqstrom əmindir ki, inam insanın mənən və ruhən harmonik şəkildə təşəkkül tapması üçün vacib şərtdir. Harri Enqstrom həyatda öz yolunu tapmaq, sabit dəyərlərə söykənmək üçün Allaha böyük ehtiyac duyur və istəyinə nail olmaq üçün pastora müraciət edir və onun məsləhətləri əsasında həyatını qurmağa cəhd edir. Lakin Allaha inamı və pastorun ortaya qoyduğu prinsiplərin daşa dəyməsi onları gerçəkləşdirməyin qeyri-mümkünlüyü Dovşanı məyusluğa və ümidsizliyə qərq edir. Harri Enqstrom dərk etməyə başlayır ki, dünyanın faktiki olaraq iki üzü mövcuddur: bir tərəfdən insan həyat praktikasında uğur qazanmaq istəyir, digər tərəfdən həyatda gördüyü işlərin arxasında inancın

durmasını yüksək mənəvi-əxlaqi prinsiplərə əsaslanmasını arzulayır. Lakin bu iki cəhətin harmoniyası mümkün deyil. Ya gərək tamamilə mənəvi- əxlaqi prinsiplərdən imtina edib praqmatik dəyərlərə istinad edəsən, ya da tərki-dünya olub, zahid həyatı sürəsən. Bu iki alternativ arasında çabalayan Harri Enqstrom baş götürüb qaçmağı, Dovşan taleyini üstün tutur.

Romanda hadisələr son dərəcə dar bir bədii məkanda cərəyan edirlər. İlk baxışdan dovşan statusu ona Amerika Birləşmiş Ştatlarının ucsuz-bucaqsız ərazisini gəzib-dolaşmağa meydan açır. Dovşan orduda xidmət etdiyi müddətdə Pensilvaniyada iki xırda əyalət şəhərində olmuş, baş götürüb qaçanda Qərbi Virciniya ştatını ziyarət etmək imkanı əldə edir. Öz qəhrəmanını bu dar mühitdə yerləşdirməklə və eyni zamanda onda bir yerdə qərar tuta bilməmək keyfiyyəti aşılamaqla müəllif, onu çarxda aramsız fırlanıb hərəkət edən sincaba çevirir və dar məkanla onun ümidsizliyini, çıxılmaz vəziyyətini vurğulayır. Harrinin pastorla söhbətləri son nəticə etibarı ilə həyatında heç bir dəyişikliyə səbəb olmasa da, Harri ucsuz-bucaqsız səmadan yardım diləməkdə davam edir.

İstifadə olunan ədəbiyyat


1. Feied Frederick No Pie in the sky; the hobo as American cultural Hero. N.T., Citadel Press, 1964.-95 p.
2. Hassan I. Contemporary American Literature: 1945-1972 –an introduction. N.T.,, Ungar, 1974 -194 p.
3. The Moderns. An anthology of New Writing in America . Ed. By LeRoi Jones, Corinth Books, 1963, XVI, 315 p.
4. Bryant J.H. The open Decision. The Contemporary American novel and its Intellectual background.N.T., The Free Press TTQ 1970. -415 p.
5. Bay M.S. A Handbook of American Literature. St. Lucia ( Queensland), University of Queensland Press, 1975. -211, 661 p.


**G.Rzayeva**

**Features of the embodiment of moral and psychological problems in American literary environment**

**Summary**


The presented article describes the life after the Second World War, the realities of the American patriarchal province. Mainly analyzed the features of the embodiment in the literature of the desire to get rid of such a mindset, spiritual crisis. Examples are given from the works of Hemingway, Faulkner, Fitzgerald, Steinbeck and other creators of the word. Interpreted lifestyle of the 50s of the twentieth century and the problems faced by people. It is concluded that at that time in America there was no trace of mass society, the youth movement and “the sexual revolution” in the person of the beatniks and hippies. However, they were already sprouts. It became clear that an adequate embodiment of the problems facing society is the embodiment of them in separate destinies. In the face of the individual are connected all the social, ideological, moral and ethical issues. The social catastrophe of the individual is experienced as its own catastrophe. From this point of view, the author and his hero adequately include all the complexes that characterize "ordinary Americans" and "passersby." Thus, it turns out that in the mid-twentieth century, attitudes toward mobility in american society changed radically. It is now believed that success can only be achieved in an orderly society. At that time, society changed its attitude towards those who make up its backbone. It is believed that continuous activity does not allow a person to adequately perceive the surrounding objects and events, to penetrate into their essence, to connect them with each other, to better understand them: their protagonists are limited to making superficial judgments.


**Key words: society, morality, war, novel, writer**

**Г.Рзаева**

## Особенности воплощения нравственно-психологических проблем в американской литературной среде

**Резюме**

В представленной статье описываются тяготы жизни после второй мировой войны, реалии американской патриархальной провинции. В основном анализируются особенности воплощения в художественной литературе желания избавиться от подобных умонастроений, духовного кризиса. Приводятся примеры из произведений Хемингуэя, Фолкнера, Фицджеральда, Стейнбека и других творцов слова. Интерпретируется образ жизни 50-х годов XX века и проблемы, с которыми сталкиваются люди. Делается вывод о том, что в то время в Америке не было и следа «массового общества, молодежного движения и «сексуальной революции» в лице битниками и хиппи. Однако были уже их ростки. Стало ясно, что адекватное воплощение стоящих перед обществом проблем есть воплощение их в отдельных судьбах. В лице индивида связаны все социальные, идеологические, моральные и этические проблемы. Социальная катастрофа личности переживается как собственная катастрофа. С этой точки зрения автор и его герой адекватно включают в себя все комплексы, которые характеризуют «простых американцев», «прохожих». Таким образом, получается, что в середине XX века отношение к мобильности в американском обществе коренным образом изменилось. Теперь считается, что добиться успеха можно только в упорядоченном обществе. В то время общество изменило свое отношение к тем, кто составляет его хребет. Считается, что непрерывная деятельность не позволяет человеку адекватно воспринимать окружающие предметы и события, проникать в их суть, соединять их друг с другом, лучше понимать их: их протагонисты ограничиваются высказыванием поверхностных суждений.

**Ключевые слова: общество, мораль, война, роман, писатель**

Redaksiyaya daxil olma tarixi: 18.04.2019
Çapa qəbul olunma tarixi: 26.04.2019
Filologiya elmləri doktoru, professor Qorxmaz Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur.